

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 11 may 2022-ci il №35 (2646) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər





Mayın 10-da - xalqımızın xilaskar oğlu Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabanda Ümummilli Liderin məzarını ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, Ulu Öndərin xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndi.

Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri də ulu öndər Heydər Əliyevin məzarı önünə gül dəstələri qoydular.

Sonra dövlətimizin başçısı və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoydular.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzüldü.

* * *

Xalqımızın ümummilli lideri Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan öz işləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Ulu Öndər Azərbaycanı dünyaya tanıdıb. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının Ümummilli Liderinə, üstəlik, dünya siyasətinin nəhənglərindən birinə çevirib. "Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub", - deyən Heydər Əliyev bütün dövrlərdə qüdrətli Azərbaycan uğrunda çalışıb. Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrilib, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil edib. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaradıb, o, vətənpərvər cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəlib. Onun Azərbaycana rəhbərlik illəri tariximizdə milli intibah dövrü kimi əbədiləşib.

Dahi Heydər Əliyev ona görə Ümummilli Liderə çevrildi ki, onun əxlaqi keyfiyyətləri ilə siyasətçi və mütəfəkkir istedadı birləşdi. "Hakimiyyətə qarşı müxalifətdə olmaq olar, amma xalqına, Vətəninə, onun yüksək əxlaqi keyfiyyətlərinə qarşı çıxmaq yolverilməzdir", - deyən ulu öndər Heydər Əliyev bu fikri dəfələrlə öz fəaliyyətində sübuta yetirdi. Buna görə də Azərbaycan tarixinin bütöv bir dövrü məhz Heydər Əliyevin adı ilə bağlıdır. Bu dövrün əsas ideoloji fəlsəfəsi isə azərbaycançılıqdır.

Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Azərbaycanın müasir tarixində misilsiz uğurlara imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin girdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin çıxarlarını praqmatik ağılla və təcrübəsi ilə dəqiqliklə hesablayan bir lider idi. Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf strategiyası onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ümummilli lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu Öndərin illər öncə böyük uzaqgörənliklə dediyi bu sözlər yada düşür: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun".

Həmin vaxt 17 ildən sonra yetişdi. Dahi şəxsiyyətin arzusunu, vəsiyyətini onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyev yerinə yetirdi. Ulu Öndərin yaratdığı və inkişaf etdirdiyi Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə düşməni torpaqlarımızdan qovub çıxardı, üçrəngli bayrağımız yenidən Vətən torpaqlarında, Qarabağın mədəniyyət beşiyi olan Şuşada qürurla dalğalanmağa başladı. Bununla da "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!" deyən Ulu Öndərin ən böyük arzularından biri də həyata keçdi, Azərbaycanın ərazi bütövlüyü təmin olundu. Xalqımız böyük dövlət xadimi, müasir müstəqil Azərbaycanın banisi Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünü 44 günlük Vətən müharibəsində qazanılmış şanlı Qələbənin doğurduğu sevinc hissi ilə qeyd edir.

## Xalqımız ulu öndər Heydər Əliyevin xatirəsini ehtiramla anır

Bu gün müasir müstəqil Azərbaycanın qurucusu, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin anadan olmasının 99-cu ildönümüdür. Xalqımız öz böyük oğlunun xatirəsini daim uca tutur. Müxtəlif yaşda olan insanlar Fəxri xiyabana gələrək Ulu Öndərin ruhunu ehtiramla anırlar.

AZƏRTAC xəbər verir ki, mayın 10-da Fəxri xiyabana üz tutan hər kəs ümummilli lider Heydər Əliyevin Vətəni və xalqı qarşısında misilsiz xidmətlərini xatırlayır. Xalqımızın Ulu Öndəri liderlik və xilaskarlıq missiyasını axıradək şərəflə yerinə yetirib, gördüyü misilsiz işlər ona əbədiyaşarlıq qazandırıb.

Böyük azərbaycanlı olan Heydər Əliyev qürurla deyirdi: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam". Bu dahi şəxsiyyətdən söhbət düşəndə hər kəs, ilk növbədə, Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin dönməzliyini və əbədiliyini təmin etdiyini xüsusi vurğulayır. Təsadüfi deyil ki, dahi şəxsiyyətin uyuduğu Fəxri xiyaban xalqımızın ziyarətgahına çevrilib.

Qədirbilən insanlar müasir tariximizin 35 illik çox mühüm bir dövründə silinməz iz qoymuş böyük şəxsiyyətin xatirəsinə ehtiramlarını bildirmək üçün bu gün də Fəxri xiyabana gəlirlər. Onların arasında bütün nəsillərin nümayəndələrini görmək olar. Onları buraya Heydər Əliyevə olan məhəbbət gətirir.

Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan dinamik inkişaf yoluna qədəm qoydu, dünyəvi, demokratik və hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşması prosesi başladı. Milli-mənəvi dəyərlər dirçəldi, müasir dövrün məzmununa uyğun multikultural və tolerant ənənələr bərqərar oldu. Məhz buna görədir ki, Azərbaycanda yaşayan müxtəlif millətlərin və dinlərin nümayəndələri də Fəxri xiyabanı ziyarət edərək, dahi şəxsiyyət və bəşəri insan olan Heydər Əliyevin xatirəsinə ehtiramlarını bildirirlər.

# Prezident İlham Əliyevin Şuşada müraciəti

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzini işə salandan sonra şəhərdəki inzibati binanın qarşısında müraciət edib.

AZƏRTAC dövlətimizin başçısının müraciətini təqdim edir.

**Prezident İlham Əliyevin müraciəti**

- Bu gün ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümüdür. Bu gün Füzuli və Şuşa şəhərlərinə səfər etmişəm. Keçən il mayın 10-da Naxçıvanda idim. Bu il mayın 10-da isə Qarabağdayam, işğaldan azad edilmiş Qarabağda.

Heydər Əliyev Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərmişdir. Xalqımız üçün ən çətin anlarda xalqın yanında olmuşdur, Azərbaycan xalqını böyük bəlalardan, faciələrdən xilas etmişdir. Heydər Əliyev Azərbaycan dövlətçiliyinin, Azərbaycan dövlətinin banisidir, onun qurucusudur. O, öz həyatını xalqa həsr etmişdir və onun ən böyük arzusu Qarabağı yenidən azad görmək, ərazi bütövlüyümüzü bərpa etmək idi. O, öz fəaliyyəti ilə dövlət quruculuğu, ordu quruculuğu sahələrində gördüyü işlər nəticəsində dövlətin əsasları yaradıldı və ölkəmiz inkişaf yoluna qədəm qoydu.



Əfsuslar olsun ki, atam bu günü görə bilmədi. Onun kimi yüz minlərlə azərbaycanlı bu günü görmədən həyatdan getdilər. Biz - onların davamçıları onların işini tamamladıq, atamın vəsiyyəti yerinə yetirildi. Bu gün atamın, bu günü görmədən həyatdan getmiş yüz minlərlə insanın, şəhidlərimizin ruhu şaddır. Biz onların ruhunu şad eləmişik.

2003-cü ildə Azərbaycan xalqı ilk dəfə mənə etimad göstərərək bir daha Ulu Öndərin siyasətinə sədaqətini nümayiş etdirdi. Mən isə öz növbəmdə demişdim ki, əgər xalq etimad göstərərsə, mən prezident kimi Heydər Əliyev yolu ilə gedəcəyəm, bu yoldan dönməyəcəyəm və ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyəm. Buna and içmişdim. Xoşbəxt adamam ki, bu anda sadiq oldum və bu gün Qarabağ azaddır. Bu gün Qarabağda və Zəngəzurda Azərbaycan bayrağı dalğalanır. Arxamdakı inzibati binanın damında Şuşanın alınmasından sonra Azərbaycan bayrağı qaldırılmışdır və binanın damından müzəffər Azərbaycan əsgərləri Şuşanın azad olunması ilə bağlı mənə raport vermişlər. Bu gün mayın 10-da mən yenidən Ulu Öndərin xatirəsinə Azərbaycan xalqının ehtiramını ifadə edərək Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da xalqımızın, dövlətimizin inkişafı, müstəqilliyimizin möhkəmləndirilməsi üçün əlimdən gələni əsirgəməyəcəm.

Bu gün Qarabağ dirçəlir. Bu gün Füzulidə və Şuşada bir neçə tədbirdə iştirak etmişəm. Bütün bölgələrdə quruculuq-bərpa işləri sürətlə gedir, azad edilmiş bütün ərazilərdə genişmiqyaslı abadlıq-quruculuq və bərpa işləri aparılır. Əslində, şəhərlər, kəndlər yenidən qurulur. Çünki işğal dövründə düşmən bütün şəhər və kəndlərimizi yerləyeksan etmişdir, bütün tarixi abidələrimizi dağıtmışdır, Qarabağın, bölgənin, Qafqazın incisi olan Şuşa kimi şəhəri bərbad hala qoymuşdur. Biz - bu torpaqların sahibləri artıq qayıtmışıq və bu torpaq, bu səma bunu görür. Görür ki, hər gün inkişafla bağlı daha bir addım atılır. Hər gün daş üstə bir daş qoyulur. Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik, bərpa edirik.

Bu gün mayın 10-da mən mütləq burada olmalı idim. Ulu Öndərin xatirəsinə öz ehtiramımı və Azərbaycan xalqının ehtiramını buradan ifadə etməli, bir daha ifadə etməli idim ki, biz bu torpaqlara, doğma torpaqlarımıza əbədi qayıtmışıq və burada əbədi yaşayacağıq.

Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

# Prezident İlham Əliyev faşizm üzərində Qələbə uğrunda həlak olan Azərbaycan övladlarının xatirəsini ehtiramla anıb



Mayın 9-da faşizm üzərində tarixi Qələbədən 77 il ötür.

AZƏRTAC xəbər verir ki, bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, müharibədə həlak olan bütün Azərbaycan övladlarının xatirəsini ehtiramla anıb.

Qeyd edək ki, Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. Bu Qələbənin qazanılmasında çox böyük payı olan xalqımız 600 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə qəhrəmanlıqla həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən artıq əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşub. Bu qələbədə Azərbaycan nefti həlledici rol oynayıb. Azərbaycan sovet ordusu üçün yanacaq-sürtkü materiallarının əsas tədarükçüsü olub. Mühərrik yağlarının 90 faizi, benzinin 80 faizi, neftin isə 70 faizi Azərbaycan tərəfindən təchiz olunub.

Bu müharibədə şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri hər zaman hörmətlə anılıb. Xalqımızın ümummilli lideri Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarına xüsusi diqqət və qayğı göstərib, onları "xalqımızın qızıl fondu" adlandırıb. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həllini daim diqqət mərkəzində saxlayır, 9 May - Qələbə bayramı ərəfəsində onlara maddi yardımlar göstərilir.

Azərbaycan xalqı artıq ikinci ildir ki, 1941-1945-ci illər faşizm üzərində Qələbəni 44 günlük Vətən müharibəsi nəticəsində əldə olunmuş böyük Zəfərin sevinc hissi ilə birgə ikiqat qürur hissi ilə qeyd edir. Xalqımızın 30 il uğrunda mübarizə apardığı ədalət, nəhayət Zəfər çaldı və Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü bərpa etdi.

Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə və 1941-1945-ci illər müharibəsində canlarından keçmiş bütün oğul və qızlarımızın əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.

# Müdafiə Nazirliyinin rəhbərliyi Ümummilli Liderin xatirəsini yad edib



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mayın 10-da xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Fəxri xiyabanı ziyarət ediblər.

Müdafiə Nazirliyinin rəhbər heyəti Ulu Öndərin məzarı önünə gül dəstələri qoyub, xatirəsini hörmət və ehtiramla yad edib.

# Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun əziz xatirəsi anılıb

Veteran Tankçılar İctimai Birliyi və Dağ yəhudiləri dini icmasının birgə təşkilatçılığı ilə Birinci Qarabağ müharibəsi zamanı 1992-ci il mayın 8-də Şuşa uğrunda gedən döyüşlərdə şəhid olan yəhudi əsilli tank komandiri, Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun anım günü ilə əlaqədar xatirə tədbiri keçirilib.

İctimai Birlikdən AZƏRTAC-a bildiriblər ki, şəhidin xatirə tədbirində onun döyüş yoldaşlarının, ailə üzvlərinin, yaxın qohumlarının, Dağ yəhudiləri dini icmasının nümayəndələrinin və başqa qonaqların iştirakı ilə Şəhidlər xiyabanında Milli Qəhrəmanın məzarı ziyarət olunub və ruhuna dualar oxunub.

Milli Qəhrəmanın xatirə tədbirindən sonra Dağ yəhudiləri dini icması sinaqoqda ehsan süfrəsi təşkil edib.

Çıxışçılar bildiriblər ki, bu cür anım mərasimlərinin keçirilməsində əsas məqsəd ölkəmizdə multikulturalizmin, tolerantlığın qorunması, gənclərimizdə hərbi vətənpərvərlik ruhunun daha da yüksəldilməsi, Azərbaycanımızın suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda şəhid olan qəhrəmanlarımızın şanlı döyüş yollarını gələcək nəsillərə çatdırmaqdır.

# Müdafiə naziri: “Döyüş hazırlığı tədbirləri, təlim və məşqlərin intensivliyi daha da artırılsın!”

*Mayın 7-də müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, müşavirəyə nazir müavinləri, qoşun növü komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, həmçinin hərbi birlik komandirləri cəlb olunub.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarına çatdırıb.

Müşavirədə Azərbaycan-Ermənistan dövlət sərhədindəki və Qarabağ iqtisadi zonasındakı əməliyyat şəraiti geniş təhlil edilib, bölmələrin maddi-texniki, mühəndis və digər döyüş təminatının gücləndirilməsi, xidməti-döyüş fəaliyyətinin təkmilləşdirilməsi və şəxsi heyətin sayıqlığının artırılması barədə konkret tapşırıqlar verilib.

General-polkovnik Zakir Həsənov döyüş hazırlığı tədbirləri, təlim və məşqlərin intensivliyinin artırılması ilə bağlı qoşun növü komandanlarına göstərişlər verib, döyüş mövqelərinin və səngərlərin möhkəmləndirilməsi, eləcə də təminat yollarının daim işlək vəziyyətdə saxlanılması barədə müvafiq tapşırıqları çatdırıb.



## Ordumuzun mövqeləri atəşə tutulub

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mayın 9-u axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Basarkeçər rayonunun Əzizli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Yuxarı Ayrım yaşayış məntəqəsi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan istifadə etməklə fasilələrlə atəşə tutub.

Bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

Şəxsi heyət və texnikamızda itki yoxdur.

Hazırda qeyd olunan istiqamətdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

# Azərbaycan Ordusunda andiçmə mərasimləri keçirilib



Müdafiə nazirinin təsdiq etdiyi illik hazırlıq planına uyğun olaraq, mayın 10-da Azərbaycan Ordusunda gənc əsgərlərin andiçmə mərasimləri keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimlər Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Gənc əsgərlər təntənəli surətdə Hərbi andı qəbul edərək Vətənə sadiq olacaqlarına söz veriblər.

Sonra Müdafiə Nazirliyinin nümayəndələri və hərbi hissə komandanlığı gənc əsgərləri Hərbi andı qəbul etmələri münasibətilə təbrik edib, xidmətlərində nizam-intizamlı, vicdanlı və cəsarətli olmağı, həvalə edilmiş silah və texnikanı dərindən öyrənməyi, Vətənə olan əsgəri borcunu ləyaqətlə yerinə yetirməyi arzulayıblar.

Yekunda şəxsi heyətin təntənəli marşla tribunanın önündən keçidi olub.

* * *

Hərbi Dəniz Qüvvələrində gənc əsgərlərin andiçmə mərasimi təntənəli surətdə keçirildi.

Tədbirdə ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Tədbiri giriş sözü ilə açan 1-ci dərəcəli kapitan Kamil Məmmədov gənc matros valideynlərini və şəxsi heyəti salamladı. "Əziz matroslar, sizin Hərbi andı qəbul etdiyiniz gün Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə təsadüf etdi. Bu gün rəşadətli Azərbaycan Ordusu müasir tələblərə uyğun, yüksək hərbi intizama malik nizami ordular sırasındadır. Təməli Ulu Öndər tərəfindən qoyulmuş və bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin siyasəti nəticəsində bütün sahələrdə olduğu kimi, ordu quruculuğu da uğurla inkişaf edir və ölkəmizin müdafiə qüdrəti daha da möhkəmləndirilir. Bunun nəticəsidir ki, 27 sentyabrda başlayan və 44 gün davam edən Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi üçün Ali Baş Komandanın apardığı məqsədyönlü daxili və xarici siyasət sayəsində rəşadətli Azərbaycan Ordusu ərazi bütövlüyümüzü bərpa edərək şərəfli və məsuliyyətli bir vəzifəni müvəffəqiyyətlə yerinə yetirdi. Sizlər döyüş və mənəvi-psixoloji hazırlığınızı artırmalı, hərbi intizamın möhkəmləndirilməsinə çalışmalı, Vətən sevgisini hər şeydən üstün tutmalı, xalqımıza və dövlətimizin etimadını doğrultmalısınız".

Gənc matros Murad Rzaquliyev bu günün həyatlarında ən əlamətdar gün olduğunu bildirdi. "Biz gənc matroslar Hərbi andı qəbul etməklə qalib Azərbaycan Ordusunun sıralarına daxil olub, Vətənimiz Azərbaycana, xalqımıza sadiq olacağımıza təntənəli surətdə and içdik. Ümummilli lider Heydər Əliyevin qurucusu və memarı olduğu Azərbaycan Ordusu bu gün Ali Baş Komandanın rəhbərliyi altında dünya miqyasında güclü ordular sırasındadır. Biz ordumuzun daha da qüdrətlənməsi və inkişafı naminə öz səylərimizi səfərbər edəcək, Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sularını və dəniz sərhədlərini göz bəbəyimiz kimi qoruyacağıq. Xəzər dənizində üçrəngli bayrağımızın daima qürurla dalğalandırılması üçün hərbin və dənizçiliyin sirlərinə yiyələnəcək, vəzifə borclarımızın öhdəsindən layiqincə gələcəyik. Həmçinin komandir və rəislərin bizə öyrətdiklərini daha dərindən mənimsəyəcək, hərbi nizamnamələrin tələblərini sözsüz və dəqiq yerinə yetirəcəyik".

Mərasim döyüş bayrağının sıra meydanından aparılması ilə başa çatdı.

**Baş leytenant
Orxan HÜSEYNLİ
"Azərbaycan Ordusu"**

Gənc əsgərlərin Hərbi andı qəbul etmələri münasibətilə “N” hərbi hissəsində təntənəli mərasim keçirildi.

Hərbi hissə komandirinin əmri ilə gənc əsgərlər Hərbi andı qəbul etməyə başladılar. Gənc əsgərlər nizami addımlarla sıradan çıxaraq əllərini masaya düzülmüş silahların üstünə qoyaraq and içdilər. Onların gur və əzəmətli səsləri dalğadalğa ətrafa yayılırdı. Mərasimdə iştirak edən valideynlər övladlarının andiçmə anını böyük sevinc hissi ilə izləyirdilər.

Gənc əsgərlər Hərbi andı qəbul etdikdən sonra onları təbrik etmək üçün çıxışlar başladı. Polkovnik Elşad Pənahov əsgərlərə müraciət edərək dedi ki, siz həyatınızın ən əlamətdar günlərindən birini yaşayırsınız. “Bu gün hamımız üçün ikiqat bayramdır. Bu gün ümummilli liderimiz Heydər Əliyevin dünyaya göz açdığı gündür. Siz Vətən müharibəsində qalib gəlmiş bir ordunun sıralarında xidmət edəcəksiniz. Əminəm ki, təlim-məşqlərdə hərbi sirləri dərindən mənimsəyəcək, biliklərinizi daim artıracaqsınız. Zabit və əsgərlərimizin İkinci Qarabağ müharibəsində göstərdikləri qəhrəmanlığı təkrar etməyə həmişə hazır olacaqsınız. Ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin qorunmasında üzərinizə düşən tapşırıqların öhdəsindən bacarıqla gələcəksiniz. Sizə xidmətinizdə uğurlar arzulayıram”.

Polkovnik-leytenant Bəhram Abdullayev də çıxış edərək dedi:

- Siz gənc əsgərlər bu gün Vətənə sədaqət andı içdiniz. Hərbi andın mətni hər bir hərbi qulluqçuya dövlətə və dövlətçiliyə sadiq qalmağı, Azərbaycan Respublikasının müstəqilliyini və ərazi bütövlüyünü şərəflə qorumağı ehtiva edir. Xoşbəxtsiniz ki, hərbi andiçmə mərasiminiz ümummilli liderimiz Heydər Əliyevin doğum günü ilə eyni vaxta təsadüf edib. Ulu öndər Heydər Əliyev demişdir: "Ordu Vətənin dayağıdır, orduda sağlam qüvvələr xidmət etməlidir". İnanıram ki, siz gənc əsgərlər içdiyiniz Hərbi anda həmişə sadiq qalacaq, Ali Baş Komandanın döyüş əmrlərini yerinə yetirməyə hazır olacaqsınız.

Polkovnik-leytenant Sərxan Bəndəliyev, kapitan Fərid İsayev, əsgər atası Əbülfət Mənsumov və başqaları çıxış edərək əlamətdar gün münasibətilə gənc əsgərləri təbrik etdilər, gələcək xidmətlərində onlara uğurlar arzuladılar.

Gənc əsgərlər adından çıxış edən əsgər Elnur Bayramov bildirdi ki, biz içdiyimiz Hərbi anda həmişə sadiq qalacaq, ölkəmizin ərazi bütövlüyünü qorumağa hər an hazır olacağıq.

**Vahid MƏHƏRRƏMOV
"Azərbaycan Ordusu"**

"N" hərbi hissəsində andiçmə mərasimi keçirildi.

Tədbiri hərbi hissənin zabiti polkovnik-leytenant Tural Abdullayev açaraq Hərbi andiçmənin ordu quruculuğunda əhəmiyyətindən, gənc əsgərlərin hərbi qulluqçu kimi formalaşmasında səmərəsindən danışdı. O qeyd etdi ki, bu tədbir daima ordu ilə ictimaiyyət arasında münasibətlərin daha da dolğunlaşmasına xidmət edib. İctimaiyyətin Vətən müharibəsində zəfər qazananların davamçılarının da Vətənə layiqincə xidmət edəcəklərinə inandığını bildirdi. Zabit bu gözəl gün münasibətilə gənc əsgərləri təbrik edərək, uğurlu xidmət arzuladı.

Polkovnik Allahverdi Hacıyev gənc əsgərlərə Quru Qoşunları Komandanının təbrik məktubunu oxudu, sonra dedi:

- Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etdi. Belə qüdrətli ordunun əsgəri olmaqla qürur duyanların Hərbi andiçmə tədbirində onları təbrik etməkdən qürurlanıram. Əminəm ki, hər biri nümunəvi xidmətilə valideynlərini də, hərbi hissənin zabitlərini də sevindirəcəklər. Bu sevinc ailə dünyasının sərhədlərini aşacaq, analar "Mən əsgərəm, ana!" - deyən övladlarının qürurunu ömürlərinə yazılan müqəddəs haray biləcəklər.



Vətən müharibəsində şəhid olan Orxan Həsənovun atası Bəkir Həsənov, əsgər babası, müəllim Yasəf Nəsibov, Birinci Qarabağ müharibəsi veteranı Arzu Kərimov çıxışlarında gənc əsgərlərə vətənsevərliyin milli-mənəvi dəyərlərdən biri olduğunu dedilər, Vətənə sədaqətlə xidmət edəcəklərinə əminliklərini bildirdilər.

Gənc əsgərlər adından çıxış edən əsgər İslam Alıyev dedi:

- Mən və əsgər yoldaşlarım Vətən müharibəsində məktəbli idik. Zəfəri məktəbli kimi yaşadıq. İndi əsgərik. Zəfəri qazananların layiqli davamçıları kimi məsuliyyətlə xidmət edəcəyik, Hərbi andda dediyimiz kimi, Vətənin hər əmrini tam yerinə yetirməyə hər birimiz hazırıq.

**Mübariz MUSAYEV
"Azərbaycan Ordusu"**

# “Xatirələrdə, ürəklərdə yaşayan dahi” adlı dəyirmi masa keçirilib



Bütün həyatını öz xalqına həsr edən, müstəqil Azərbaycan dövlətinin quruculuğu kimi milli dövlətçiliyimizin ideya əsasını yaradan, mütəşəkkil nizami Azərbaycan Ordusunun təşkilini xalqımız qarşısında ən böyük xidmətlərindən biri kimi qiymətləndirən ulu öndər Heydər Əliyevin doğum günündə Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində "Xatirələrdə, ürəklərdə yaşayan dahi" adlı dəyirmi masa keçirilib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildiriblər.

Tədbir iştirakçıları əvvəlcə Heydər Əliyev muzey-lektoriyasının ekspozisiyası ilə yaxından tanış olub, nümayiş etdirilən foto və sənədlər haqqında ətraflı məlumatlandırılıblar.

Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi rəisinin vəzifəsini icra edən general-mayor Bəkir Orucov qonaqları və kursantları salamlayıb, onlara dəyirmi masanın işində uğurlar arzulayıb.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni ifa olunub.

General-mayor B.Orucov ölkəmizin dövlətçilik tarixində, müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış, elmin, təhsilin, mədəniyyətin inkişafında, respublikamızın milli təhlükəsizliyinin qarantı olan ordu quruculuğunda Ulu Öndərin müstəsna xidmətləri barədə ətraflı söhbət açıb.

Qeyd olunub ki, dahi rəhbərin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" sözləri bir neçə gün öncə Şuşada Zəfər qurultayını keçirən dünya azərbaycanlılarının şüarına çevrilib. Heydər Əliyev müasir ordumuzun memarıdır və tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərdə ilk uğurumuz da onun adı ilə bağlıdır. 1993-cü ilin sonlarında məhz Heydər Əliyevin rəhbərliyi ilə tarixə "Horadiz əməliyyatı" kimi düşən hərbi əməliyyatlar zamanı Füzuli və Cəbrayıl rayonlarının 22 yaşayış məntəqəsi, o cümlədən sonralar şəhər statusu verilən Horadiz qəsəbəsi azad edilib.

2016-cı ildə Aprel qalibiyyəti, 2018-ci ildə Naxçıvan ərazisində Günnüt Zəfəri və 2020-ci ildə Vətən müharibəsində qazandığımız möhtəşəm qələbənin də əsasında Heydər Əliyev ideyaları durur. Bizi qələbədən-qələbəyə aparan Ulu Öndərimizin ideyaları, onun azərbaycançılıq məfkurəsi, bir də Ulu Öndərimizin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik məharəti, hücum diplomatiyası və dəmir yumruğunun gücüdür.

Heydər Əliyev əmin idi ki, Azərbaycan Ordusunun gözəl gələcəyi var. Bu ordu daha da möhkəmlənəcək, güclənəcək, müstəqil Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü qoruyacaq, respublikamızın hərbi qüdrətini yüksəklərə qaldıracaqdır.

Böyük iftixar hissi ilə nəzərə çatdırılıb ki, artıq ikinci ildir Ulu Öndərimizin doğum günü Vətən müharibəsində qazandığımız böyük zəfərin yaratdığı yüksək əhval-ruhiyyə ilə qeyd edilir. Xoşbəxtik ki, bu tarixi hadisələrin şahidi və iştirakçılarıyıq. Nə qədər Azərbaycan var, Azərbaycan xalqı var, rəşadətli ordumuzun qalib əsgər və zabitləri var, deməli, Heydər Əliyev əbədi yaşayacaqdır.



Heydər Əliyevin mənalı ömür yolunun müxtəlif anlarını əks etdirən videoçarx tədbir iştirakçılarının böyük marağına səbəb olub.

Dəyirmi masanın moderatoru polkovnik Abdulla Qurbani Ulu Öndərlə bağlı xatirələrini danışıb. Naxçıvan Muxtar Respublikasında, eləcə də Bakıda dəfələrlə xalqımızın dahi oğlu Heydər Əliyevlə görüşdüyünü, onun qarşısında çıxış etdiyini, ən yaxşı kitablarını, poema və şeirlərini ona həsr etdiyini, Azərbaycan mədəniyyətinin və incəsənətinin inkişafındakı xidmətlərinə görə Ulu Öndərimizin Fərmanı ilə "Əməkdar İncəsənət xadimi" fəxri adına layiq görüldüyünü və aparıcısı olduğu hərbi paradlarda unudulmaz liderimizin adını çəkərkən, onun arzularının həyata keçdiyini qeyd edərkən böyük fəxarət hissi keçirdiyini bildirib.



Məşhur "91-lər"dən olan Əməkdar jurnalist, siyasi elmlər doktoru, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin 1992-ci ilin oktyabrında müstəqilliyini yenicə bərpa etmiş dövlətimizi və xalqımızı düçar olduğu bəlalardan xilas etmək üçün o vaxtlar Naxçıvan Ali Məclisinin sədri vəzifəsində çalışan Heydər Əliyevin yenidən Azərbaycan hakimiyyətinə qayıdışı məqsədilə "91-lər"in ona müraciətini yada salması dəyirmi masa iştirakçılarının gözləri önündə həmin təlatümlü günlərin mənzərəsini yaratmaqla yanaşı, həm də Ulu Öndərin əzəmətli xilaskar obrazını yaradıb.

Vüqar Rəhimzadə deyib: "Həmin vaxtlar respublikada vəziyyət çox gərgin idi. Mövcud olan hakimiyyət böhranı daha da güclənirdi. İctimai-siyasi vəziyyətə tam nəzarət olunmur, cəmiyyət obyektiv qanunauyğunluqlardan daha çox subyektiv, mülahizələrə əsasən idarə olunur, siyasi və iqtisadi sistemdə əsaslı islahatlar aparılmır, hüquqi dövlətin yaranması yolunda real addımlar atılmırdı, Qarabağ fitnəkarlığı bir çoxları üçün siyasi oyunbazlığa, qazanc mənbəyinə çevrilirdi. Respublikada ictimai-siyasi həmrəylik yaratmaq işində əməli fəaliyyət göstərilmirdi. Ölkə fəlakət həddində idi, hərc-mərclik hökm sürürdü. Müstəqil dövlətin dayaqlarını möhkəmləndirmək üçün heç bir addım atılmırdı. İqtisadiyyat tamamilə çökmüş, dövlət büdcəsi boşalmış, ağır sosial durum, daxildəki silahlı birləşmələr, separatçı meyillərin baş qaldırması, digər tərəfdən erməni işğalının genişlənməsi, böyük qaçqın köçü xalqın səbir kasasını doldurmuşdu. Biz "91-lər" o vaxtlar ölkəyə rəhbərlik edəcək həqiqi bir lideri Heydər Əliyevin simasında görürdük və heç də yanılmamışdıq. Ulu Öndərimiz sonralar bizim müraciətimizə qoşulan yüzlərin, minlərin xahişini qəbul elədi və bununla da Azərbaycanımızın həyatında yeni bir tarixi mərhələnin əsası qoyuldu. Heydər Əliyevin Azərbaycan hakimiyyətinə qayıdışı ilə dövlətimiz çevriliş cəhdlərindən, xalqımız vətəndaş müharibəsi təhlükəsindən, ordumuz isə təsadüfi, səriştəsiz, qeyri-peşəkar "millət qəhrəmanlarından" xilas oldu. Bununla da 1993-cü ilin 15 iyun günü tarixə "Milli Qurtuluş Günü" kimi yazıldı.

Qarabağ müharibəsinin iştirakçısı polkovnik Elşad Əbilov Cəmşid Naxçıvanski adına Hərbi Liseydə oxuduğu illərdə Ulu Öndərlə görüşdüklərini, dahi rəhbərdən xeyir-dua alaraq ölkənin ali hərbi məktəblərinə yollandıqlarını və həmişə Ulu Öndərin qayğısını hiss etdiklərini deyib.

Hərbi qulluqçulardan Qabil Talıbov 1993-cü ildə Heydər Əliyevin Gəncə hadisələri ilə bağlı Nizami yurduna gedərkən Şamaxı yolunda avtomobili saxlatdırıb gənc kursantlarla görüşdüyünü, onlara təmkinli olmağı, qardaş qırğınına yol verməməyi, hər bir hadisəyə ağılla yanaşmağı məsləhət gördüyü anları xatırlayıb.

15 il Naxçıvan Qarnizonunda zabit kimi xidmət edən Elvin Əzizov Heydər Əliyevlə bir neçə görüşün iştirakçısı olduğundan dahi rəhbəri yaxından gördüyündən və onun alovlu nitqini üzbəüz dinlədiyindən fəxrlə danışıb.

Əməkdar jurnalist, vətənpərvərlik mövzusunda onlarla kitabın müəllifi, ehtiyatda olan mayor Rəşid Faxralı Ulu Öndərin Azərbaycan mədəniyyətinin, incəsənətinin və ədəbiyyatının daha da inkişaf etməsində, milli-mənəvi dəyərlərimizin təbliğində, görkəmli şəxsiyyətlərimizin adlarının əbədiləşdirilməsində, abidələrinin ucaldılmasında, ev muzeylərinin yaradılmasında xidmətlərini yüksək dəyərləndirib.

General-mayor Bəkir Orucov Azərbaycan Prezidenti Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına səfərləri zamanı fəxri qarovulun rəisi kimi üç dəfə Ulu Öndəri Naxçıvan Beynəlxalq Hava Limanında qarşıladığı anların xoş təəssüratlarını tədbir iştirakçıları ilə bölüşüb.

Polkovnik Mehman Kərimov Ukrayna Respublikasındakı Donetski Ali Hərbi Siyasi Məktəbində təhsil aldığı vaxtlarda Vətənə tətilə gələrkən Culfa rayonunun Yaycı kəndində yerli əhali ilə görüşdə Ulu Öndərlə ilk dəfə qarşılaşdığını, Ulu Öndərin "Təhsilini müvəffəqiyyətlə başa vurduqdan sonra hökmən Vətənə qayıt. Bu gün peşəkar zabitlərə daha çox ehtiyacımız var. Qarşıda bizi çox imtahanlar gözləyir" sözlərini heç vaxt yadından çıxarmadığını deyib.

Həqiqi hərbi xidmətini uğurla başa vurduqdan sonra hərbi peşəni, Vətənə xidmət peşəsini seçərək hazırda "Ehtiyat zabit kursu"nda təhsil alan dinləyicilər Orxan Hüseynquliyev, Şamil Qurbanov çıxış edərək valideynlərindən, müəllimlərindən Ulu Öndər haqqında eşitdikləri maraqlı hadisələrdən bəhs ediblər.

1994-cü ildə Təlim Tədris Mərkəzinin sıra meydanında görkəmli hərbi xadim general-mayor Həzi Aslanovun abidəsinin açılışında kursantlar qarşısında çıxış edən ulu öndər Heydər Əliyevin dediyi, bu gün də, gələcəkdə də aktual olan fikirlər gələcək zabitlərin bir daha diqqətinə çatdırılıb: "Hərbi peşə, zabitlik peşəsi, Vətənin müdafiə işi müqəddəsdir. İnsan həyatda çox peşələrlə məşğul ola bilər. Amma hər bir adam özünü hərbi işə, əsgəri işə, Vətəni müdafiə etmək işinə həsr edə bilməz. Bunu yalnız Vətənini həddindən artıq sevən, xalqına sadiq olan insanlar edə bilərlər. Mən sizi məhz bu cür görmək istəyirəm. Güman edirəm ki, siz elə də olacaqsınız. Qarşınızda böyük bir yol durur. Bu yolda ilk addımlar atırsınız. Arzu edərdim ki, yaxşı təhsil, təlim alasınız, yaxşı hazırlaşasınız, Azərbaycan Ordusunun möhkəmlənməsində, inkişaf etməsində böyük xidmətlər göstərəsiniz".

Gələcək zabitlər Ulu Öndərin arzu etdiyi kimi Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edəcəklərinə and içiblər.

"Sən elə bir zirvəsən, küləklər neyləyəcək. Dünənim, bu günümsən, sənindir gələcək" və "Nə qədər Azərbaycan, nə qədər bu millət var, Heydər xalqım deyəcək, xalq Heydər söyləyəcək" misralarının yer aldığı məşhur mahnının səsləndirilməsi ilə dəyirmi masa başa çatıb.

# Ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, plana uyğun olaraq şəxsi heyət Heydər Əliyev mərkəzlərini, muzeyləri və abidələri ziyarət edib, Ulu Öndərin şərəfli həyat yolu və fəaliyyəti haqqında filmlər nümayiş etdirilib, "dəyirmi masa"lar, digər mədəni-kütləvi tədbirlər təşkil olunub.

Tədbirlərdə ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

* * *

Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsi və İdeoloji iş və Mənəvi-Psixoloji Təminat idarəsinin zabitlərinin iştirakı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş tədbir keçirildi.

Öncə Ulu Öndərin büstü ziyarət olunub, qarşısına əklil və gül dəstələri qoyuldu. Tədbir iştirakçıları dahi şəxsiyyət Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış oldular. Çıxış edənlər bildirdilər ki, Azərbaycanın dövlətçilik tarixinə silinməz iz qoyan Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə gördüyü misilsiz işlər tariximizin ən şanlı və parlaq səhifələrinə qızıl hərflərlə həkk olunub. Qeyd edildi ki, məhz Ulu Öndərin apardığı uğurlu islahatlar nəticəsində ölkəmiz bütün sahələrdə inkişaf edib. Dahi şəxsiyyət Heydər Əliyevin qətiyyətinə və uzaqgörənliyinə toxunan natiqlər bildirdilər ki, ulu öndər Heydər Əliyev sayəsində Azərbaycanda iqtisadi inkişaf, sosial tərəqqi, ictimai-siyasi sabitlik təmin olunub, Vətən və xalq qarşısında tarixi xidmətlərin möhürü qoyulub.

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

Hərbi Dəniz Qüvvələrində xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə tədbir keçirildi.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi ziyarət olundu, önünə gül dəstələri düzüldü.

Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Sübhan Bəkirov çıxış edərək, tarixə müstəqil Azərbaycan dövlətinin qurucusu, dahi siyasətçi və böyük tarixi şəxsiyyət kimi daxil olan ulu öndər Heydər Əliyevin şərəfli ömür yolundan, Vətən qarşısında tarixi xidmətlərindən və müstəqillik dövründə Azərbaycana uğurla rəhbərlik etməsindən danışdı: "Bu gün Azərbaycan ulu öndər Heydər Əliyevin 99 illik yubileyini qeyd edir. Heydər Əliyev böyük tarixi şəxsiyyətdir, müstəqil Azərbaycanın qurucusudur. O, öz ömrünü Azərbaycan xalqına həsr etmiş və bütün dövrlərdə Azərbaycana sədaqətlə xidmət etmişdir. Təcrübəli dövlət xadimi olan Heydər Əliyev zamanın ən çətin və mürəkkəb sınaqlarından məharətlə keçərək Böyük Xilaskar rolunu oynamış, bizim üçün müstəqil Azərbaycan dövlətini yaratmışdır. Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamaqla dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir. Bu gün fəxrlə deyə bilərik ki, Heydər Əliyev müasir, müstəqil Azərbaycanın banisidir".







Kontr-admiral Sübhan Bəkirov bildirdi ki, Azərbaycanın zəngin dövlətçilik tarixində güclü və yüksək döyüş hazırlığına malik ordunun yaradılması, həmçinin inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımızın 30 il həsrətində olduğu torpaqlarımızın Ali Baş Komandanın rəhbərliyi və rəşadətli Azərbaycan Ordusunun şücaəti ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsində erməni işğalçılarından azad edilməsi də məhz Heydər Əliyev ideyalarının təntənəsidir.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası ilə birgə Azərbaycan Hərb Tarixi Muzeyində "Tarixi zəfərin qazanılmasında Heydər Əliyev ideyaları" adlı tədbir keçirildi.

Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun bir qrup əməkdaşı, Müdafiə Nazirliyinin idarələrinin, hərbi hissələrin zabit və kursantları, ictimaiyyət nümayəndələri iştirak etdilər.

Tədbirdə çıxış edənlər ümummilli lider Heydər Əliyevin müasir Azərbaycanın qurucusu olduğunu vurğuladılar. Həmçinin qeyd olundu ki, Ulu Öndər xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra digər sahələrdə olduğu kimi, ordu quruculuğunda da aparılan islahatlardan, ordumuzun nizami ordu kimi formalaşmasından, qələbə ilə nəticələnən Horadiz əməliyyatından və s. danışdılar. Onun uğurlu xarici siyasəti nəticəsində respublikanın iqtisadi potensialı artdı, Azərbaycanın nüfuzu yüksəldi.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri tədbir iştirakçılarına qəhrəmanlığı və vətənpərvərliyi tərənnüm edən musiqi nömrələri təqdim etdilər.

**Hüsniyyə İDRİSOVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycanın Milli Qəhrəmanı İlqar Mirzəyevin anım mərasimi keçirilib



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mayın 8-də İkinci Şəhidlər xiyabanında Azərbaycanın Milli Qəhrəmanı İlqar Mirzəyevin doğum günü münasibətilə anım tədbiri keçirilib.

Müdafiə Nazirliyinin bir qrup zabiti, Vətən müharibəsinin iştirakçıları, ictimaiyyət nümayəndələri, Milli Qəhrəmanın ailə üzvləri və döyüş yoldaşları onun məzarını ziyarət edib, önünə əklil və gül dəstələri qoyublar.

Anım mərasimində əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər qəhrəmanımızın şərəfli həyat yolundan, vətənpərvər zabit kimi Vətənə qüsursuz xidmətindən, şücaət və igidliyindən danışıblar.



Milli Qəhrəmanın ailə üzvləri göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərin xatirələrinin daim uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.

# "Nəsillərdən-nəsillərə əmanətdi Əhməd Cavad" adlı yubiley tədbiri keçirilib






Azərbaycan Respublikası Prezidentinin Əhməd Cavadın anadan olmasının 130 illiyi haqqında 2022-ci il 20 aprel tarixli Sərəncamına əsasən, ölkəmizin hər yerində olduğu kimi, Azərbaycan Ordusunda da silsilə tədbirlər həyata keçirilir.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildiriblər.

Qoşun növü, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində təşkil edilən mədəni-kütləvi tədbirlərdə, ictimai-siyasi hazırlıq dərslərində şəxsi heyətin nəzərinə çatdırılır ki, Əhməd Cavad Azərbaycan ədəbi-bədii fikir tarixində istiqlal şairi kimi özünəməxsus dəst-xətti ilə seçilən, müstəqil mövqeyə malik söz ustalarındandır. O, bütün qəlbi ilə bağlı olduğu doğma xalqının müstəqillik ideallarına həyatı boyu sadiq qalıb, azadlıq motivləri ilə zəngin yaradıcılığı milli məfkurədən yoğrulub. Azərbaycanın dövlət rəmzlərini yüksək səviyyədə alovlu tərənnüm edib, müstəqil dövlətçiliyə sevgi aşılayan əsərləri dərin vətənpərvərlik duyğularının heyrətamiz poetik ifadəsidir.

Vətən əsgərləri məlumatlandırılır ki, daim ictimai-siyasi hadisələrin qaynar nöqtələrində olan, dövrün görkəmli şəxsiyyətləri sıralarında keçən əsrin 30-cu illərinin ağır repressiyalarına məruz qalaraq sovet totalitarizmin qurbanına çevrilən Əhməd Cavadın mübarizələrlə dolu 45 illik həyatı bu günümüzün gəncliyi, eləcə də Vətən müdafiəçiləri üçün örnəkdir və hər kəsi vətəndaşı olduğu Vətənə, dövlətə, xalqa sədaqətlə xidmət etməyə, ulu babalarımızdan bizə əmanət olan müqəddəs torpaqlarımızı ürəkdən sevməyə, onun uğrunda hər an canından, qanından keçməyə hazır olmağa çağırır.

Mayın 5-də - unudulmaz istiqlal şairimizin ad günündə Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində keçirilən "Nəsillərdən-nəsillərə əmanətdi Əhməd Cavad" adlı yubiley gecəsində dövlət himnimizin müəllifinin doğma Vətənin azadlığı, müstəqilliyi naminə mübarizələrdə keçən ağır, eyni zamanda, şərəfli ömür yoluna çıraq tutulub, xatirəsi əsgəri ehtiramla yad edilib.

Müdafiə Nazirliyi rəsmilərinin, Bakı Qarnizonundakı hərbi hissələrin və ictimaiyyət nümayəndələrinin, mədəniyyət və incəsənət xadimlərinin iştirak etdikləri yubiley mərasimində əvvəlcə əsgər xoru və bütün tədbir iştirakçıları dünyaşöhrətli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin Əhməd Cavadın sözlərinə yazdığı Azərbaycan Respublikasının Dövlət Himnini ifa edib.

Layihənin müəllifi Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani çıxışının əvvəlində xalqımızın ümummilli lideri Heydər Əliyevin dövlət himnimiz haqqında söylədiyi dəyərli fikirləri tədbir iştirakçılarının diqqətinə çatdırıb: "Azərbaycanın gözəl himni var. Sevindirici haldır ki, bu himn hələ 1918-ci ildə yazılıb. Bunun müəllifi bizim böyük bəstəkarımız Üzeyir Hacıbəyovdur. Himnimizin sözlərini Əhməd Cavad yazıb. Onun musiqisi də çox gözəldir, sözləri də çox mənalıdır, gözəldir. Mən xarici ölkələrə səfər edərkən hər yerdə iki himn çalınır - Azərbaycanın himni, bir də getdiyimiz ölkənin himni. Hər ölkənin himni özünə əzizdir. Öz xalqının musiqisini, mənəvi xüsusiyyətlərini əks etdirir. Bu, təbiidir. Ancaq mən hər yerdə müqayisə edib görürəm ki, bizim himnin müəllifləri bu himni nə qədər böyük məharətlə yaradıblar. Hər dəfə xarici ölkələrdə bu himni dinləyərkən mən yenidən iftixar hissi duyuram".

Polkovnik A.Qurbani qeyd edib ki, yeraltı və yerüstü sərvətləri ilə zəngin, füsunkar gözəlliklərə malik, geostrateji maraqların mərkəzində yerləşən ölkəmiz zaman-zaman yadellilərin hücumlarına məruz qalsa da, torpaqlarımızda qanlar tökülsə də, igidlərimiz savaş meydanında şəhid olsa da, varımız-sərvətimiz talansa da, heç kim, heç nə xalqımızın döyüş ruhunu, mübarizə əzmini, azadlıq duyğusunu əlindən ala bilməyib. Ən ağır zamanlarda, elə şahidi olduğumuz 44 günlük Vətən müharibəsində də xalqımız dəmir yumruq olaraq bir bayraq altında, bir amal uğrunda birləşib. Ötən əsrin 30-cu illərində xalqımızın vətənpərvər ziyalılarının, müstəqilliyimiz uğrunda mübarizənin fəal iştirakçılarının, görkəmli hərbi xadimlərimizin, o cümlədən qələmini süngüyə çevirərək xalqı müstəqillik uğrunda mübarizəyə çağıran yazarlarımızın böyük bir hissəsi totalitarizmin qurbanı olsa da, Uzaq Sibirə, Şərqi Qazaxıstana sürülsə də, olmazın işgəncə və iztirablarına məruz qalsa da, əsrin sonlarında Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsi ilə repressiya qurbanlarına yenidən yaşamaq hüququ verilib. Bu sahədə ulu öndər Heydər Əliyevin xidmətləri əvəzsizdir və xalqımız yaxşı bilir ki, hələ respublikamıza rəhbərliyinin ilk günlərindən Heydər Əliyev bu istiqamətdə qətiyyətli addımlar ataraq qırmızı terrorun qurbanı olan Cəmşid Naxçıvanskinin adını əbədiləşdirib, Hüseyn Cavidin nəşini Uzaq Sibirdən Vətənə gətirərək doğma torpağına əmanət edib, məzarı üzərində əzəmətli abidə inşa etdirib, Bakıda möhtəşəm abidəsini ucaltdırıb.

Dahi Liderimizin ənənələrini uğurla davam etdirən Prezident İlham Əliyevin gördüyü işlər isə göz qabağındadır. Əhməd Cavadın anadan olmasının 120 və 130 illik yubileylərinin keçirilməsi haqqında, Əhməd Cavadın "Seçilmiş əsərləri"nin latın qrafikası ilə çap olunmasına dair Prezident sərəncamlarını xatırlamaq kifayətdir.

Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor Bədirxan Əhmədlinin Əhməd Cavadın ədəbi yaradıcılığı, həmçinin həm qələmi, həm də silahı ilə mübarizələrdə keçən həyatı barədə real sənədlərə, tədqiqat materiallarına əsaslanan əhatəli çıxışı tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

"Birinci Cahan savaşı istiqlal şairimizi əymədi, Azərbaycan Xalq Cümhuriyyətinin süqutu onu sındırmadı. 1923-cü ildə güllələnəcək fədailərin sırasında adının keçməsi onu mübarizəsindən döndərmədi, "Göygöl" şeirinə görə 5 ay zindanda yatması onu ruhdan salmadı. Döyülərək, işgəncələr verilərək məhkəmə qarşısına çıxarılsa da, əqidəsini dəyişmədi, "Mən çeynənən bir ölkənin haqq bağıran səsiyəm!" deyərək qamətini dik tutdu. Nahaq yerə, günahsız olaraq güllələnsə də, ruhən ölmədi, dünyasını dəyişərək əbədiyyətə qovuşdu Əhməd Cavad", - professor B.Əhmədli deyib.



Şəxsi Heyət Baş İdarəsi İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi vəzifəsini icra edən general-mayor Bəkir Orucov tədbir iştirakçılarını salamlayaraq bildirib ki, xalqımızın ümummilli lideri Heydər Əliyev gənclərimizin vətənpərvərlik tərbiyəsinə həmişə xüsusi önəm verərdi. Ulu Öndərimiz hələ neçə illər öncə demişdir: "Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil. Vətənə bağlı olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik". Qalib Azərbaycan Ordusunun hər bir əsgəri vətənpərvərdir. Vətən uğrunda, öz torpağı uğrunda canından, qanından keçməyə belə hazırdır. Müzəffər Ali Baş Komandan İlham Əliyev bir neçə gün əvvəl Azərbaycan xüsusi təyinatlıları qarşısında Vətən müharibəsində qazanılan möhtəşəm qələbədən danışarkən bir daha vurğulayıb ki, bizi irəliyə aparan Vətən sevgisi idi. Bu, həqiqətən də belədir. Vətən sevgisi, Vətən məhəbbəti, vətənpərvərlik hissi, yüksək mənəvi-psixoloji hazırlıq, döyüş ruhu yoxdursa, heç bir qələbədən, uğurdan, zəfərdən danışmağa dəyməz. Bu mənada, Əhməd Cavadın Vətən sevgisi, müstəqillik, azadlıq duyğuları hər bir əsgərimiz üçün nümunədir və Vətən müdafiəçilərini daha böyük uğurlara ruhlandırır.

Əməkdar jurnalist, ehtiyatda olan mayor, vətənpərvərlik mövzusunda onlarla kitabın, sənədli filmin ssenari müəllifi Rəşid Faxralı Əhməd Cavadın yubileyinə həsr etdiyi şeiri oxuyub və bu şeir alqışlarla qarşılanıb:

*Qarı dünya, gözünü aç,*
*"Qoşma"nı gör, "Göygöl"ü gör,*
*Yerə-göyə sığışmayan dəyanətdi*
*Əhməd Cavad.*
*"Vətən!" dedi, "Bayraq!" dedi*
*"Dalğa"sının pıçıltısı,*
*Azərbaycan, adın boyda məhəbbətdi*
*Əhməd Cavad.*
*Aşıb-daşan boz selləri uğurundan*
*saxlayandı,*
*Şər gətirən yolu-izi himnimizlə*
*bağlayandı,*
*Dağımıza daş atanı "Dağlar"ıyla*
*dağlayandı,*
*"Azərbaycan!" deyənlərə zəmanətdi*
*Əhməd Cavad,*
*Nəsillərdən-nəsillərə əmanətdi*
*Əhməd Cavad!*

"45 illik ömrü təlatümlər qoynunda, iztirablar içində, mübarizələrdə keçsə də, övladları doğma yurd-yuvasından pərən-pərən düşsə də, güllələnəndən sonra dünyalarca sevdiyi Şükriyyəsi zindanlara atılıb Vətənindən uzaqlarda sürgünlük həyatına məhkum edilsə də, Əhməd Cavad ölmədi. Məncə Əhməd Cavad dünyanın ən xoşbəxt şairi, ləyaqət, mərdlik simvoludur. Hər sabahımızı Əhməd Cavad misraları ilə açır, keçən günümüzü Əhməd Cavad şeiri ilə başa vururuq. Dünyada bundan gözəl nə ola bilər ki... Vətən müharibəsində qələbəyə gedən yollarda Əhməd Cavad şeirləri, həmin şeirlərə yazılan mahnılar bizə ruh verirdi. Kənd və şəhərlərimizi bir-bir azad edərək zirvələrə Zəfər bayrağımızı hər dəfə sancanda sözləri Əhməd Cavada aid olan dövlət himnimizi bir ağızdan böyük coşqu ilə oxuyardıq. Nə qədər Azərbaycan xalqı, Azərbaycan dövləti və biz varıq, deməli, Əhməd Cavad da qan yaddaşımızda yaşayacaq", - bu sözləri isə Vətən müharibəsinin iştirakçısı polkovnik Elşad Əbilov deyib.

Tədbirdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri Əhməd Cavadın şeirlərinə yazılan "Çırpınırdın Qara dəniz", "Bismillah", "Gəncədən gəlirəm", "Şükriyyə", "Can Azərbaycan" mahnılarını ifa edib, şairin şeirləri səsləndirilib.

Yubiley mərasimi "Zəfər təntənəsi" xoreoqrafik kompozisiyası və aparıcının söylədiyi "Nəsillərdən-nəsillərə əmanətdi Əhməd Cavad" misrasının bütün iştirakçılar tərəfindən təkrarlaması ilə başa çatıb.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

**(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)**

## Mövzu: 15 İyun - müstəqillik tariximizin mühüm mərhələsi, Milli Qurtuluş Günüdür

**Suallar:**

**1. Müstəqillik tariximizin mühüm mərhələsi.**

**2. 15 İyun - Milli Qurtuluş Günüdür.**

### Müstəqillik tariximizin mühüm mərhələsi

Sosializm ideyalarını iflasdan və SSRİ-ni dağılmaqdan xilas etmək məqsədilə 80-ci illərin ortalarında irəli sürülən "yenidənqurma" siyasəti Azərbaycanda da demokratiya və suverenlik uğrunda mübarizəyə yeni nəfəs verdi.

Demokratiya və aşkarlıq şəraitindən məharətlə istifadə edən ermənilərin Azərbaycanın əzəli torpaqları hesabına "Böyük Ermənistan" yaratmaq iştahaları yenidən artdı. Qısa müddət ərzində kütləvi olaraq Qərbi Azərbaycandakı doğma torpaqlarından 230 mindən çox azərbaycanlı deportasiyaya məruz qaldı. 1988-ci il fevralın 21-də Azərbaycanın əzəli tərkib hissəsi olan "Dağlıq Qarabağ"ın Ermənistanın tərkibinə keçməsi barədə qərar qəbul edildi və əzəli torpaqlarımızdan azərbaycanlıların təmizlənməsinə başlanıldı. 1988-ci il fevralın 28-də törədilmiş Sumqayıt hadisəsində azərbaycanlıları təqsirkar kimi qələmə verərək, antiazərbaycan, antitürk ictimai fikrin formalaşmasına nail oldular. Bütün bunlar Azərbaycanda suverenlik və ərazi bütövlüyü uğrunda kütləvi xalq hərəkatının başlanmasına səbəb oldu. 1988-ci il fevralın 19-da Bakıda ilk etiraz mitinqi keçirildi. Kütlələrin etiraz mitinqlərindən ən əzəmətlisi 1988-ci il noyabrın 17-də Bakının Azadlıq meydanında, yarım milyondan çox adamın iştirakı ilə "suverenlik", "azadlıq" şüarları altında keçirilmişdi. Mitinq dekabrın 4-də şəhərə yaxın silahlı qüvvələr tərəfindən dağıdıldı.

1990-cı il yanvarın 13-də Bakıda bir nəfər erməni tərəfindən iki azərbaycanlının qətlə yetirilməsi vəziyyəti daha da gərginləşdirərək əhali arasında antierməni əhval-ruhiyyəsini daha da gücləndirmişdi. Bu, mərkəzin Bakıda olan emissarları (Girenko, Primakov və b.) və Azərbaycanın ozamankı rəhbərliyi tərəfindən antisovet, qatı millətçilik, rejimə itaətsizlik kimi qələmə verilmişdi. Bununla da, mərkəzdə Azərbaycanda itaətsizliyin qarşısını almaq qərarı formalaşmışdı. 1990-cı il yanvarın 15-də SSRİ Ali Sovetinin Rəyasət Heyəti "DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması barədə" fərman verdi. Bakı və ətraf rayonlara əlavə hərbi qüvvələr gətirildi. Yanvarın 19-da SSRİ Ali Sovetinin Rəyasət Heyəti ayın 20-si saat 00:00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi. Lakin o, qırğından sonra elan olunmuşdu. Əhaliyə hadisələr barədə məlumat verilməsin deyə yanvarın 19-u axşam Respublika dövlət televiziyasının enerji bloku partladıldı. Nəhayət, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə xüsusi təyinatlı hissələrdən ibarət "şanlı" Sovet ordusu Bakı üzərinə hücuma keçdi. Bu faciədən xəbər tutan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ertəsi günü Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək imperiyanın Bakıda qanlı qırğın törətdiyini dünyaya bəyan etdi, onu "təcavüz və xəyanət" kimi qiymətləndirdi.

Xalq arasında Sovet sisteminə nifrət güclənərək sovet və kommunist üzvlərini ikrahla qarşılayırdılar. Buna görə də Naxçıvan Muxtar Respublikası Ali Sovetində 1990-cı ilin noyabr və Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il fevral sessiyasında Naxçıvan MSSR - Naxçıvan Muxtar Respublikası və Azərbaycan SSR - Azərbaycan Respublikası adlandırıldı.

Moskvada 1991-ci il 19-21 avqust hadisələrindən sonra Azərbaycanda da ictimai-siyasi vəziyyət daha da kəskinləşdi. Suverenlik, müstəqillik və azadlıq uğrunda mübarizə əməli vəzifəyə çevrildi. Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il avqustun 30-da çağırılmış növbədənkənar sessiyası "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə" qəbul etdi. 1991-ci ilin sentyabrında "Dağlıq Qarabağ" özünü müstəqil respublika elan etmişdi. Ermənilər "Dağlıq Qarabağ"dakı Rusiya ordu hissələrinin köməyi ilə Azərbaycanın ətraf yaşayış məntəqələrini işğal edirdilər. Hakimiyyət isə ciddi tədbirlər görmək iqtidarında deyildi. Belə bir şəraitdə xalqın tələbi ilə Ali Sovetin 1991-ci il oktyabrın 18-də toplanış sessiyası "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiyası Aktı"nı qəbul etdi. Beləliklə, Azərbaycan Respublikasının müstəqilliyi rəsmən bərpa olundu.

Hələ SSRİ-nin yaşadığı bir şəraitdə respublikada milli dövlət quruculuğu formalaşmağa başlayaraq prezident idarəçiliyi yaradıldı. Dövlət katibi və dövlət müşavirləri vəzifələri təsis olundu. 1991-ci il noyabrın 26-da bərabər əsasda (25 nəfər "demokratik blok"dan, 25 nəfər iqtidar yönlü deputatlardan) 50 nəfərlik Milli Şura yaradıldı. 1991-ci ilin axırlarında SSRİ dağıdıldıqdan sonra dekabrın 29-da Azərbaycan Respublikasında ümumi rəy sorğusu keçirildi. Xalq yekdilliklə dövlət müstəqilliyinə tərəfdar çıxaraq Azərbaycan Respublikasının əməli müstəqillik mərhələsi başlandı.

Müstəqilliyimizin ilk illərində ictimai-siyasi vəziyyət gərgin olmaqda qalırdı. Ermənistanın Azərbaycanın ərazi bütövlüyünə qəsdləri davam edir, iqtidar-müxalifət qarşıdurması kəskinləşir, iqtisadiyyat isə tənəzzül edirdi. Vəziyyət vətəndaş müharibəsi həddinə çatmışdı. Belə şəraitdə xalqın, vətənini sevən ziyalıların nəzəri diqqəti 1990-cı ilin iyulunda Moskvadan Azərbaycana gələrək Naxçıvanda məskunlaşan və xalqın təkidi ilə 1991-ci il sentyabrın 3-də Naxçıvan MR Ali Məclisinin sədri seçilən təcrübəli siyasətçi ulu öndər Heydər Əliyevə çevrilmişdi. Onlar çıxış yolunu onun respublika rəhbərliyinə gəlməsində görürdülər. 1992-ci il oktyabrın 16-da ziyalılardan ibarət 91 nəfərin "Səs" qəzetində Azərbaycan xalqının ümummilli lider Heydər Əliyevə yenidən böyük siyasətə qayıtması xahişi ilə müraciəti dərc edildi.

### 15 İyun - Milli Qurtuluş Günüdür

Müstəqilliyimizin ilk illərində ölkə hakimiyyətində siyasi böhran hökm sürməyə başladı. Erməni vandallarının Azərbaycana qarşı yeritdiyi ərazi iddiaları zaman ötdükcə daha da dərinləşməyə başladı. Bədnam ermənilər xarici havadarlarının dəstəyi ilə silahlanmış quldur dəstələrinin təxribatı nəticəsində tarixi torpaqlarımızı işğal etdilər. Naşı, səriştəsiz hakimiyyət ölkəni daha da dərin uçuruma doğru aparırdı. Düşməndən müdafiə olunmaq üçün yaradılan özünümüdafiə dəstələri ilk vaxtlarda erməni silahlı quldur dəstələrinə qarşı fəal döyüşsələr də, sonradan pərakəndə vəziyyətdə öz "ağa"larının qanunsuz əməllərini icra etməyə başladılar. Həmin silahlı dəstələr vahid ordu rəhbərliyinə tabe olmaqdan müxtəlif yollarla imtina edirdilər. Azərbaycanda hakimiyyət boşluğu yaranmışdı. Gənc respublikada rəhbərliyə yiyələnmək üçün ayrı-ayrı şəxslər və qruplar arasında mübarizə gedirdi. 1993-cü il iyunun 4-də Gəncədə polkovnik Surət Hüseynovun nəzarəti altında olan hərbi hissənin hakimiyyətə itaətsizliyi ölkəni tamamilə xaosa sürükləmişdi. Ölkədə anarxiya, xaos hökm sürməyə başladı. Belə böhranlı və ağır vəziyyətdə ölkə vətəndaşları yeganə çıxış yolunu yenə də müdrik rəhbərinin hakimiyyət sükanı arxasına keçməsində görmüşdür. Bu taleyüklü sınaq anında xalqın çağırışına səs verən, dövlətin gələcək taleyinə biganə qalmayan böyük strateq ulu öndər Heydər Əliyev Bakıya dönərək respublikada yaranmış hakimiyyət böhranının aradan qaldırılması istiqamətində əməli fəaliyyətə başlamışdır. Ulu Öndərin bir qrup ziyalı ilə Gəncəyə səfər etməsi və heç bir riskdən çəkinməyərək silahlanmış qüvvələrlə danışıqlar aparması vətəndaş müharibəsi təhlükəsinin qarşısının alınmasında mühüm addım olmuşdur. Bundan bir neçə gün sonra isə Ulu Öndər parlamentdə səslənən təkidli xahişləri, ən əsası xalqın istəyini nəzərə alaraq Azərbaycan Respublikası Ali Sovetinin Sədri vəzifəsinə seçilməsinə razılıq vermişdir. 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyev Ali Sovetin sədri seçildi və həmin gün tariximizə "Milli Qurtuluş Günü" kimi daxil olmuşdur. Bu tarixi hadisə respublika həyatında xaos və anarxiyadan qurtuluşa doğru yeni mərhələnin başlanğıcı oldu.

Ulu Öndərin siyasi hakimiyyətə qayıdışından sonra ölkədə mövcud olan gərginlik tədricən aradan qalxmağa başladı. "Dağlıq Qarabağ"da və Ermənistanla sərhəd boyu ərazilərdə gedən gərgin döyüşlər daha da intensivləşdi. Ulu Öndər cəbhədəki vəziyyətin ağırlığını görüb qəti, prinsipial mövqe ortaya qoyaraq 2 noyabr 1993-cü ildə radio və televiziya vasitəsilə xalqa müraciət etdi. Ölkə rəhbərinin bu müraciətindən sonra xalqın, torpağın təəssübünü çəkən minlərlə qeyrətli oğul və qızımız Şəhidlər xiyabanında and içərək "Vətən uğrunda!", "Heydər baba yolunda!" şüarları altında Qarabağa, döyüşə yola düşdülər. Ulu Öndərin tez-tez ön cəbhəyə getməsi, döyüşən Azərbaycan əsgərləri ilə yanaşı, səngərlərdə olması, onların qayğı və ehtiyacları ilə maraqlanması, döyüşdə fərqlənənləri yerindəcə mükafatlandırması, döyüşçülərin qayğıları ilə yaşaması onlara yeni ruh yüksəkliyi vermiş və bunun məntiqi nəticəsi olaraq qəhrəman döyüşçülərimiz məkrli düşmənin hücumlarının qarşısını alaraq cəbhədə əks-hücum əməliyyatları həyata keçirdilər və bir sıra yaşayış məntəqələrimizi yağılardan azad etdilər. Qarabağ bölgəsində gedən döyüşlərdə Azərbaycan Ordusunun əldə etdiyi uğurlar öz müsbət təsirini göstərdi və düşmən 1994-cü il mayın 12-də atəşkəsi imzalamağa məcbur oldu. Bu da ölkədə sabitliyin davam etməsi üçün mühüm şərt idi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hakimiyyətinin ilk aylarında pərakəndə silahlı dəstələr arasında vahid komandanlığa tabe olmaq istəməyən dəstə başçıları cəbhədə uğurlu əməliyyatların aparılmasına mane olur, həm də dövlətimizə ən böyük təhlükə hesab olunurdular. Vahid komandanlığa tabe olan ordu birləşmələrini Müdafiə Nazirliyinin tərkibində birləşdirmək məqsədilə ölkədə ayrı-ayrı şəxslərə xidmət göstərən pərakəndə silahlı dəstələr ləğv edildi. Bununla da Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının yeni mərhələsinə qədəm qoyuldu. Bir sözlə, Azərbaycanda müasir ordunun həm nəzəri, həm də praktiki baxımdan yaradılması məhz ulu öndər Heydər Əliyevin tarixi xidmətidir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin başlıca məqsədi neftlə zəngin olan ölkəmizi inkişaf etdirmək idi. 1994-cü ilin sentyabrında Azərbaycan haqqında dünyada təsəvvürün belə olmadığı, respublikamız barədə mənfi rəy formalaşdığı dövrdə ulu öndər Heydər Əliyev dünyanın 7 inkişaf etmiş qüdrətli dövlətini təmsil edən 11 neft şirkəti ilə "Əsrin müqaviləsi"ni imzalamağa müvəffəq oldu. Təbii ki, "Əsrin müqaviləsi" Azərbaycan iqtisadiyyatına uğur qazandıran ən böyük layihə kimi tarixə düşdü, ölkəyə investisiya axımlarını təmin etdi, Azərbaycan Respublikasının siyasi, iqtisadi və informasiya blokadası şəraitində olduğu bir vaxtda ölkəmizi dünyaya tanıdan bir qığılcım idi.

Tarixin amansız və sərt sınaqları dövründə dünyanın ayrı-ayrı ölkələrinə səpələnərək yaşamaq məcburiyyətində qalmış azərbaycanlıların birlik və həmrəyliyinin əldə edilməsi işində ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri vardır. O, dünya azərbaycanlılarının təşkilatlanması və onların bir Vətən - müstəqil Azərbaycan ətrafında sıx birləşməsi üçün daim və əzmlə səy göstərmiş, bu istiqamətdə son dərəcə qiymətli qərarlar qəbul etmişdir. Ümummilli lider Heydər Əliyev bizim dahi müasirimiz olaraq hər bir azərbaycanlı üçün qürur mənbəyimiz və taleyin xalqımıza bəxş etdiyi böyük tarixi şəxsiyyətdir.

Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz ulu öndər Heydər Əliyev yaradıb. Ümummilli lider Heydər Əliyev dövlətçiliyin əsasını qoymaqla, həm də onun möhkəmləndirilməsində əvəzsiz xidmətləri olan görkəmli siyasi xadimdir. Zaman keçdikcə onun necə uzaqgörən, müdrik rəhbər olduğunu görürük. 12 may 1994-cü ildə Ermənistanla cəbhədə uzun sürən atəşkəs elan etməklə Qarabağ məsələsinin sülh, diplomatik yolla həll edilməsinin tərəfdarı olduğunu bildirmişdir. Ermənistan tərəfindən işğal edilən torpaqlar beynəlxalq aləmdə Azərbaycan ərazisi kimi tanınırdı. O zaman dəfələrlə ümummilli lider Heydər Əliyev Ermənistan rəhbərləri ilə görüşlər keçirərək diplomatik yolla torpaqlarımızdan düşmən qoşunlarının çıxarılmasını tələb edirdi. Azərbaycan xalqı və hakimiyyəti heç vaxt işğalçılıq siyasəti ilə barışmayacağını qeyd edir və müharibənin qaçılmaz olduğunu Ermənistan rəhbərliyinə bildirirdi. Atəşkəs dövründə Azərbaycan Ordusu döyüş hazırlığını artırmaqla yanaşı, müasir silah və sursatla da təchiz olunurdu. Şübhəsiz ki, Ulu Öndərin apardığı müdrik siyasət nəticəsində müstəqilliyimiz qorunub, dövlətlə xalqın birliyi təmin edilib. Bu gün Azərbaycan qalib ölkə olaraq dünyadakı nüfuzunu daha da artırıbsa, 44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğal altında qalan torpaqlarını düşmən tapdağından azad edibsə, bu uğurların təməlində Heydər Əliyev məktəbinin, uzaqgörənliyinin əsasları dayanmaqdadır. Bu əsaslar Azərbaycanın ötən onilliklərdə güclənməsinə, iqtisadi, diplomatik, hərbi sahədə irəliləməsinə şərait yaratdı və əlbəttə ki, Ulu Öndərin siyasət mücəssəməsi məhz bu günlər yaşadığımız Zəfər tariximizə hesablanmış uzun, çətin bir yolun keçidi idi...

Dünyada elə bir xalq tapmaq olmaz ki, milli tarixinin ən mürəkkəb mərhələsində müstəsna rol oynamış, dövlətçilik ənənələrini formalaşdırmış milli lideri olmasın. Çünki liderlərin mənalı və zəngin həyat səhifələrini vərəqləyərkən, addımlarının təhlilini apararkən onların mənsub olduğu xalqların da dövlətçilik ənənələri, tarixi, inkişaf səviyyəsi barədə aydın təsəvvür yaranır. Bu dahi şəxsiyyətlər yüksək mənəvi aləmləri ilə, ali bəşəri və milli ideallara, ümummilli mənafelərə ürəkdən bağlılıqları ilə milyonların qəlbində özləri üçün möhtəşəm abidə ucaldırlar. Bu mənada xoşbəxt xalqıq ki, bizim də əbədiyyət abidəmiz var - ulu öndər Heydər Əliyev!

**İdeoloji İş və
Mənəvi-Psixoloji
Təminat İdarəsi**

# Hərbçilərin "Heydər zirvəsi"nə ekspedisiyası başa çatıb



Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə yaradılmış Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutunun kursantlarının və Hərbi Hava Qüvvələrinin hərbi qulluqçularından ibarət nümayəndə heyətinin iştirakı ilə təşkil olunan "Ulu Öndər" adlı ekspedisiya uğurla başa çatıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə alpinistlər Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək gül dəstələri qoyublar.

Ekspedisiya üzvləri təyin olunmuş marşrut üzrə "Heydər zirvəsi"nə yürüş ediblər.

Böyük Qafqaz sıra dağlarının Qızılqaya massivində dəniz səviyyəsindən 3751 metr yüksəklikdə yerləşən "Heydər zirvəsi"nə qalxan alpinistlər Ümummilli Liderin barelyefi önündə onun əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib, burada Azərbaycan Respublikasının Dövlət Bayrağını dalğalandırıblar.

# Ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunan idman yarışı keçirildi





*Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş idman yarışı keçirildi.*

Vətən Müharibəsi Qəhrəmanı polkovnik Nizami Mövlanov çıxış edərək bildirdi ki, xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyəti dövründə istər ordu quruculuğu olsun, istərsə də gənclərimizin idman həyatı, hər zaman Vətənimizin inkişafı naminə əvəzsiz xidmətlər göstərib. Ölkəmizin gündən-günə inkişaf etməsində dahi rəhbərin qoyduğu siyasi xəttin dövlətimizin başçısı İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirildiyini önə çəkdi. Xalqımızın ulu öndər Heydər Əliyevin xatirəsini hər zaman böyük hörmət və ehtiramla yad etdiyini qeyd etdi. O, idman yarışında birincilik uğrunda mübarizə aparacaq kursantlara uğurlar dilədi.

Keçirilən yarışları idarə edəcək hakimlər və komandalar öz yerlərini tutdular. Yaşıl meydanda hər bir idman növünə uyğun geyimdə olan həvəskar kursantların futbol, voleybol, karate, cüdo, boks, king-boks, girqaldırma, ağırlıqqaldırma üzrə nümunəvi çıxışları tamaşaçıların alqışlarına səbəb oldu.

Hərbi institutun Aviamodelizm dərnəyinin nümayiş uçuşları uzaqdan idarə olunan təyyarə modeli, avtonom idarə olunan kvadrakopterin nümunəvi çıxışları da tədbirə xüsusi rəng verirdi.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş idman tədbiri qalib gəlmiş fərdi iştirakçılara və komanda rəhbərlərinə məktəb rəhbərliyi tərəfindən mükafatların təqdimatı ilə yekunlaşdı.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**



# Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Sanatoriyasında futbol yarışı keçirildi

Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Sanatoriyasında Ulu Öndərin anadan olmasının 99-cu ildönümünə həsr olunan futbol turniri keçirildi.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Dövlət Himni səsləndirildi.

Mərkəzi Hərbi Sanatoriyanın rəisi tibb xidməti polkovniki Elçin Abdullayev çıxış edərək ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında əvəzsiz xidmətlərindən, həmçinin ordumuzun yaranmasında mühüm rolundan söhbət açdı. Zabit vurğuladı ki, Heydər Əliyevin ordu quruculuğu siyasətini uğurla davam etdirən Ali Baş Komandan İlham Əliyevin orduya olan diqqət və qayğısı nəticəsində torpaqlarımız düşmən işğalından azad edildi.




Rəsmi hissə bitdikdən sonra yarışa start verildi.

Turnirdə iştirak edən komandalar arasında gərgin mübarizə şəraitində keçən yarışda qalib komandanın oyunçuları sanatoriya rəisi tərəfindən fəxri fərmanla mükafatladırıldı və xatirə şəkli çəkildi.

**Leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Fransada gənc cüdoçular arasında Avropa kuboku yarışını Azərbaycan komandası 8 medalla başa vurub



Fransada gənc cüdoçular arasında Avropa kuboku yarışını Azərbaycan komandası 8 medalla başa vurub.

Turnirdə Azərbaycanı oğlanlar arasında 16 idmançı təmsil edib. Yarışın ikinci günü komandamızın üzvləri üçün daha uğurlu olub. Belə ki, təmsilçilərimiz İsmayıl Zamanov (81 kq) və Vüqar Talıbov (90 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıblar. Ömər Rəcəbli (81 kq), Ruslan Nəsirli (100 kq), Kənan Nəsibov (+100 kq) isə bürünc medal qazanıblar.

Qeyd edək ki, turnirin birinci günündə təmsilçilərimiz Turan Bayramov (60 kq), Vüsal Qələndərzadə (73 kq) yalnız finalda uduzaraq gümüş medala sahib olublar. Qasım Vəlizadə isə (66 kq) üçüncü yeri tutub.

Beləliklə, komandamız 2 qızıl, 2 gümüş, 4 bürünc medalla ümumi hesabda 4-cü yeri tutub.

İki gün davam edən turnirdə 15 ölkədən 300-dən çox idmançı mükafatlar uğrunda mübarizə aparıb.

## "Superbet Chess Classic": Şəhriyar Məmmədyarov növbəti turda heç-heçəyə razılaşıb



Rumıniyanın paytaxtı Buxarestdə "Grand Chess Tour" seriyasının ilk mərhələsi olan "Superbet Chess Classic" şahmat turnirinin dördüncü turunun oyunları keçirilib.

Yarışda iştirak edən Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov növbəti turda ağ fiqurlarla yerli idmançı Boqdan Daneel-Dyak ilə mübarizə aparıb. Tərəflər 40-cı gedişdə sülhə razılaşıblar.

Qeyd edək ki, şahmatçımız birinci turda ABŞ təmsilçisi Uesli Soya uduzub, növbəti iki turda macarıstanlı Riçard Rapport və Maksim Vaşye-Laqravla (Fransa) heç-heçə edib.

Dairəvi sistem üzrə təşkil olunan və mayın 14-dək davam edəcək turnirin ümumi mükafat fondu 350 min ABŞ dolları təşkil edir.

Xatırladaq ki, Şəhriyar Məmmədyarov 2021-ci ildə keçirilmiş "Superbet Chess Classic" turnirinin qalibi olub.

## Azərbaycanın qadın cüdoçuları Avropa kuboku yarışını 2 medalla başa vurublar



Azərbaycanın qadın cüdoçuları Bosniya və Herseqovinanın Sarayevo şəhərində keçirilən açıq Avropa kuboku yarışını 2 bürünc medalla başa vurublar.

Qitə turnirində komandamızın üzvləri Aytac Qardaşxanlı (63 kq) və Südabə Ağayeva (70 kq) üçüncü yeri tutublar. Qeyd edək ki, yarışda Azərbaycanın 6 qadın cüdoçusu iştirak edib. Avropa kuboku yarışına 27 ölkədən 230-dan çox cüdoçu qatılıb.

Xatırladaq ki, A.Qardaşxanlı ötən ay Polşada keçirilmiş analoji yarışda uğurla çıxış edərək qalib adını qazanıb.

**AZƏRTAC-ın materialları əsasında**

---

Tibb xidməti baş leytenantı Abdullayev Elvin Elçin oğluna məxsus MN № 0054482 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş gizir Əhmədov Namiz Hafiz oğluna məxsus SQ № 0011284 nömrəli gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| kapitan Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | baş leytenant Günay TAĞIYEVA | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 535 Nüsxə 4673 |